UOT 94(479.24)
DOI: https://doi.org/10.30546/19063.2026.06.5319

CƏBRAYIL (KARYAGİN) QƏZASINDA TAXILÇILIĞIN İNKİŞAFI (XIX ƏSRİN SONU – XX ƏSRİN İLK ONİLLİKLƏRİ)

RƏNA BƏYLƏR QIZI ƏSƏDOVA
AMEA Tarix və Etnologiya İnstitutu,
Azərbaycan Universiteti,
tarix üzrə fəlsəfə doktoru, dosent,
Bakı ş., İstiqlaliyyət küç., 30. AZ1001
ORCID kod: 0000-0002-0310-6201
E-mail: rena-beyler@gmail.com

XÜLASƏ

Yelizavetpol (Gəncə) quberniyasının bütün ərazilərində, o cümlədən Cəbrayıl (Karyagin) qəzasında əhalinin əsas məşğuliyyəti tarixən taxılçılıq olmuşdur. XIX əsrin sonu – XX əsrin ilk onilliklərində ticarət əkinçiliyinin inkişafı bu bölgədə taxılçılıq təsərrüfatına ciddi təsir göstərmişdi. Təqdim edilən məqalədə Cəbrayıl (Karyagin) qəzasında bəhs olunan dövrdə taxılçılıq təsərrüfatı, ayrı-ayrı taxılçılıq sahələrinin inkişafının özünəməxsus cəhətləri rəsmi sənədlər və statistik göstəricilər əsasında tədqiq edilmişdir.

Açar sözlər: *Cəbrayıl (Karyagin) qəzası, taxılçılıq, təkmil alət və maşınlar, buğda, arpa, çəltik, darı istehsalı.*

GİRİŞ

Cəbrayıl (Karyagin) qəzası XIX əsrin sonu – XX əsrin ilk onilliklərində Şimali Azərbaycanın əsas taxıl istehsalı mərkəzlərindən biri idi. Buna həm qəzanın coğrafi mövqeyi, həm əkinə yararlı torpaq sahələrinin çoxluğu və məhsuldarlığı, həm də süni suvarmanın nisbətən yaxşı inkişaf etməsi idi. Cəbrayıl qəzasının ərazisinin şimal-qərb hissəsi hündür dağlıq ərazi idi. Ziyarət dağı da (hündürlüyü 8186 fut) burada yerləşirdi. Dağın yüksək hissəsi çəmənlik idi və yaylaq kimi istifadə edilirdi. Daha aşağı hissə sıx meşəlik idi. Ziyarət dağından cənuba doğru dağlıq ərazi seyrək meşəliyi olan təpəliklərlə əvəz olunurdu. Qəzanın cənub hüdudundan Araz çayı axırdı. Çayın sol sahili tərəfdə, şərqə doğru geniş düzənlik çöl sahələri – Kəyan düzü, ondan şərqdə Mil düzü və Qarabağ düzü mövcud idi.

Bütün qəza ərazisi Araz çayı hövzəsində yerləşirdi və qəzanın əkin yerləri dağlıq ərazidən cənuba – Araza doğru axan Köndələn, Quru-çay, Çərəkən, Qozlu-çay və Həkəri çayının suları ilə suvarılırdı. Bu çaylar yazda tam bolsulu olur, lakin yayda suyu çox azalırdı. Yalnız Araz çayı özü və Həkəri çayı hətta yay aylarında da bolsulu olaraq qalırdı.

Yüksək dağlıq ərazi yay otlaqları kimi, aran hissədəki çöllüklər qış otlaqları kimi maldarlıqla məşğul olan yarımköçəri insanların normal yaşayışı, mal-qoyun sürülərinin ilboyu bəslənməsi baxımından olduqca əlverişli idi. Dağətəyi və təpəlik ərazilərdə isə əkinçilik, bağçılıq və ipəkçiliklə məşğul olan oturaq əhali yaşayırdı.

Qəzanın iqlimi də əkinçilik üçün əlverişli idi. Qəzanın şimal hissəsində yüksək dağlıq ərazinin iqlimi bol yağıntı ilə xarakterizə olunurdu. Dağətəyi ərazilərə də kifayət qədər yağıntı düşürdü. Aran və çöllük ərazilərdə isə iqlim yayda həddindən artıq quru və isti idi və əkin yerləri yalnız süni suvarma ilə becərilə bilirdi.

Əsas taxılçılıq sahələri. Cəbrayıl (Karyagin) qəzasının ümumi sahəsi 3 173 kv.km və ya 290 413 desyatin idi ki, XX əsrin əvvəlində bu ərazinin 113 309 des. 94 kv.saj. hissəsi əkinə yararlı torpaqlar hesab edilirdi. Bu torpaqlardan dövlət kəndlilərinin pay torpaqları – 29 003 des. 60 kv.saj.; sahibkar kəndlilərinin pay torpaqları – 53 680 des. 30 kv.saj.; bəy torpaqları – 30 626 des. 04 kv.saj. idi. Bu torpaqlardan istifadəyə görə hər il qəza üzrə 46 898,38 rubl vergi alınırdı [10, c. 66-67].

Cəbrayıl qəzasında (1905-ci ildə Karyagin adı verildi – R.Ə.) və bütövlükdə Yelizavetpol quberniyasında əhalinin təsərrüfat həyatında taxılçılıq tarixən başlıca yer tutmuşdu. XIX əsrin sonu – XX əsrin başlanğıcında quberniya əhalisinin dörddə üç hissəsi əkinçiliklə məşğul idi və əkinə yararlı torpaqların 80 faizində taxıl bitkiləri (buğda, arpa, darı, çəltik və s.) becərilirdi [6, c.6]. Taxıl əhalinin əsas istehlak və mübadilə məhsulu idi. Əhalinin ərzaqla təminatı, əkinçinin əməyinin qarşılığında ödəmə, torpaq sahibinin aldığı verginin həcmi taxılçılığın vəziyyətindən asılı idi.

Cəbrayıl (Karyagin) qəzasının yerli əhalisi XIX əsrin sonu – XX əsrin ilk onilliklərində başlıca ərzaq məhsulu kimi taxıl məhsulları becərirdi. Taxılçılıqda da payızlıq buğda əkinləri mütləq üstünlük təşkil edirdi. Ardınca da yazlıq buğda və arpa becərilməsi müəyyən yer tuturdu. Qəzanın dağlıq hissəsində başlıca olaraq yazlıq buğda və arpa, dağətəyi bölgələ-

rində yazlıq və payızlıq buğda, düzənlik ərazilində isə yalnız payızlıq buğda becərilirdi. Yalnız qəzanın qərb hissəsində – Həkəri dərəsində əkin yerlərinin çox hissəsində çəltik və bostan bitkiləri becərilirdi [11, c188; 9, c.123].

Taxılçılığın əhalinin həyatında belə çox mühüm yer tutmasına baxmayaraq, taxıl bitkilərinin becərilməsi şərtləri, əkinçilik texnikası primitiv olaraq qalmaqda idi. Cəbrayıl (Karyagin) qəzasının Bakı-Tiflis dəmir yolundan uzaqda olması, bu yol ilə gətirilən təkmil alət və texnikanın qəzaya çatdırılmasını çətinləşdirirdi [3, s.295-296]. Torpağın şumlanması üçün qəzanın hər yerində əvvəlki dövrlərdə olduğu kimi ağır kotandan istifadə edilirdi. Bu kotanların çəkisi, dəmir zəncirləri ilə birlikdə 20-30 *pud* (1 pud 16,3 kq-a bərabərdir – R.Ə.) idi. XIX əsrin sonu – XX əsrin başlanğıcında taxıl istehsalı başlıca olaraq əkin sahələrinin genişlənməsi hesabına baş verirdi. Yalnız sahibkar torpaqlarında bəzi texniki yeniliklər tətbiq olunması hesabına məhsuldarlığın artması müşahidə olunurdu.

Qəzada ən çox bütün Qafqazda yüksək keyfiyyəti ilə seçilən sarı buğda becərilirdi [2, s.74]. Sarı buğdanın da zarda, qara-qılçıq və gürgənə növləri daha qiymətli hesab edilirdi [11, c176; 9, c.124]. İlk iki sarı bərk buğda növü isti iqlimə uyğunlaşmışdı və bol məhsul verirdi. Gürgənə növü isə dağətəyi bölgələrdə becərilirdi. XIX əsrin 80-ci illərində 1 pud qara-qılçıq növü buğda 55-60 qəpiyə, dağlıq bölgədə yetişən buğdanın 1 pudu 45-55 qəpiyə satılırdı [11, c179]. Əkilməsi həcminə görə ikinci yeri qırmızı buğda tuturdu. Bu növ də bərk buğda idi, qırmızı rəngi və daha xırda olması ilə fərqlənirdi. Əhali arasında da bu növ – xırda buğda və ya qırmızı buğda adı ilə tanınırdı. Üçüncü yeri yumşaq buğda növü tuturdu. Bu növ ağ və sarımtıl rəngdə idi. Əhali daha çox bunun ağ İrəvan buğdası növünü əkib-becərirdi [9, c.125].

Buğdadan sonra daha çox əkilən taxıl növü arpa idi. Arpa bitkisi qəzanın hər yerində, hətta buğda əkilməsi mümkün olmayan dağlıq bölgələrdə də becərilirdi. Arpa əkini yazlıq və payızlıq olmaqla aparılırdı. Payızlıq arpa toxmaq adlanırdı və heyvanların yemlənməsi üçün işlədilirdi. Yazlıq arpa yumşaq idi və ərzaq kimi istifadə olunurdu.

Qəzanın süni suvarmanın yaxşı təşkil edildiyi bölgələrində çəltik də becərilirdi. Yuxarıda qeyd edildiyi kimi, çəltikçilik Həkəri çayı boyundakı kəndlərdə xüsusilə mühüm yer tuturdu. Bərgüşad çayı boyunda çəltiyin xakina növü, Həkəri çayı sahillərində Marağa növü əkilirdi. Xakina düyüsü bişirilən zaman şişirdi və bu cəhətinə görə qazan-çattadan adlandırılırdı. Marağa növü olan düyü isə qırmızımtıl rəng çaları ilə seçilirdi, bişirilən zaman uzanırdı və yağı özünə çəkmirdi. Bu keyfiyyətinə görə Marağa növü Xakina növünə nisbətən 1,5 dəfə baha satılırdı [11, c.192].

Bundan əlavə, əsasən dağ yamaclarında və dərələrində, meşəlik ərazidə talalarda darı bitkisi də becərilirdi. Darını becərməyi sərfəli edən çox məhsuldar olması ilə bərabər, quraqlığa, xəstəliklərə davamlılığı idi. Darını həm yerli əhali, həm də rus kəndliləri əkib-becərirdi. Yerli azərbaycanlı ailələrinin əkdiyi ənənəvi darı növünə nisbətən, rus kəndlilərinin əkdiyi sarı darı daha keyfiyyətli idi və daha baha qiymətə satılırdı. Ümumiyyətlə isə, darı buğda və arpaya nisbətən çox ucuz idi. Rus ailələri bu darını yarmaya qatıb sıyıq adlı xörək hazırlayırdılar. Azərbaycanlı kasıb ailələrdə isə darıdan çörək bişirilirdi. Bundan əlavə, darıdan quş yemi, samanından isə mal yemi kimi istifadə edilirdi [9, c.131].

"1891-ci il üçün Qafqaz təqvimi"nə görə XIX əsrin 80-ci illərinin sonunda Cəbrayıl qəzasında 27 589 çetvert payızlıq buğda, 17 640 çetvert yazlıq buğda, 15 422 çetvert arpa, 1 050 çetvert qarğıdalı, 553 çetvert darı, 40 çetvert kartof toxumu səpilmiş, 220 712 çetvert payızlıq buğda, 141 120 çetvert yazlıq buğda, 123 376 çetvert arpa, 21 000 çetvert qarğıdalı, 16 590 çetvert darı, 800 çetvert kartof məhsulu götürülmüşdü [5, c.30-31].

1903-cü ildə qəza üzrə 25 610 çetvert payızlıq buğda, 1 343 çetvert yazlıq buğda, 15 707 çetvert arpa, 1 311 çetvert darı, 2 200 çetvert çəltik, cəmi 46 171 çetvert toxum səpilmiş, 234 331 çetvert payızlıq buğda, 9 262 çetvert yazlıq buğda, 123 625 çetvert arpa, 20 855 çetvert darı, 29 760 çetvert çəltik, cəmi 417 833 çetvert taxıl məhsulu götürülmüşdü [6, c.9; вед. № 1].

Bu statistik göstəricilərin təhlili göstərir ki, keçən dövr ərzində payızlıq buğda istehsalı artmış, yazlıq buğda əkinləri azalmış, arpa əkinlərində isə ciddi bir dəyişiklik olmamışdı.

Karyagin qəzası üzrə yararlı torpaqlar 1912-1913-cü illərdə 115 542 desyatin həcmində idi. Həmin torpağın 10 765 desyatini suvarılan əkin sahələri, 29 633 desyatini dəmyə əkin sahələri, 577 desyatini üzüm bağları, 2 820 desyatini üzüm və digər meyvə ağaclarının olduğu qarışıq bağlar, 410 desyatini biçənək, 6 780 desyatini yay otlağı, 61 994 desyatini qışlaq yeri idi. Qəzanın 797 desyatin ərazisini isə meşəlik təşkil edirdi [5, на 1914 г., отд. стат., с.146-147]. Qəzanın suvarılan torpaqları əsasən aran bölgələrində idi. Bu yerlərdə süni suvarma ilə Cənubi Qafqaz üçün xarakterik olan bütün taxıl növləri:

buğda, arpa, çəltik, darı, küncüt və texniki bitkilər: pambıq, üzüm, tut yarpağı (ipəkqurdu bəsləmək üçün – R.Ə.), qismən də tütün yetişdirilirdi. Bağçılıqda qoz, ərik, şaftalı, nar, əncir və s. üstün yer tuturdu.

Karyagin qəzasında, bütövlükdə Cənubi Qafqazda ticarət əkinçiliyinin inkişafına 1912-ci ildə sahibkar kəndlilərinin pay torpaqlarının məcburi satın alınması, müvəqqəti mükəlləfiyətliliyin ləğv edilməsi haqqında aqrar qanunların qəbul edilməsi müsbət təsir etdi. Həmin qanuna görə, Karyagin qəzasında ali müsəlman silkinə məxsus suvarılan əkin yerinin 1 desyatini üçün 39 rubl, suvarılmayan əkin yerinin 1 desyatini üçün 24 rubl satınalma qiyməti müəyyən edilmişdi [5, на 1914 г., отд. спр., с.140].

"1914-cü il üçün Qafqaz təqvimi"ndə əks olunmuş statistik göstəricilərə görə Karyagin qəzasında 1912-ci ildə 38 679 desyatin sahəyə taxıl bitkiləri əkilmiş, 231 314 çetvert payızlıq buğda, 9 170 çetvert yazlıq buğda, 133 709 çetvert arpa, 16 275 çetvert darı, 2 108 çetvert çəltik olmaqla, cəmisi 392 576 çetvert taxıl məhsulu götürülmüşdü [5, на 1914 г., отд. стат., с.170, 171]. 1913-1914-cü illərdə Karyagin qəzasında pambıq əkinləri də sürətlə genişlənməkdə idi [5, на 1915 г., отд. общ., с.143].

"Yelizavetpol quberniyasının 1913-cü il üzrə şərhi"ndə əks olunmuş statistik göstəricilərə görə 1913-cü ildə 58 133 desyatin sahəyə taxıl bitkiləri: 57 130 çetvert payızlıq buğda, 2 800 çetvert yazlıq buğda, 29 781 çetvert arpa, 2 800 çetvert darı, 1 160 çetvert çəltik, 13 çetvert qarabaşaq olmaqla, cəmi 93 684 çetvert taxıl əkilmiş, 263 960 çetvert payızlıq buğda, 7 000 çetvert yazlıq buğda, 80 934 çetvert arpa, 9 600 çetvert darı, 5 080 çetvert çəltik, 100 çetvert qarabaşaq olmaqla, cəmisi 366 674 çetvert taxıl məhsulu götürülmüşdü [7, за 1913 г., вед № 9].

NƏTİCƏ

Cəbrayıl (Karyagin) qəzasında XIX əsrin sonu – XX əsrin ilk onilliklərində taxılçılığın inkişafına dair rəsmi statistik göstəricilər belə qənaətə gəlməyə imkan verir ki, bu regionda da, Azərbaycanın digər bölgələrində olduğu kimi, payızlıq taxıl istehsalı artmaqda davam edirdi. Yazlıq buğda və arpa əkilib-becərilməsində isə müəyyən qədər azalma nəzərə çarpırdı.

Şimali Azərbaycana Mərkəzi Rusiyadan təriqətçi və bidətçi rus ailələrinin – molokanların köçürülməsindən sonra yerli əhali, o cümlədən Cəbrayıl (Karyagin) qəzası sakinləri onlardan kartof bitkisini əkib-becərməyi öyrəndilər. Artıq XIX əsrin son onilliklərinə aid müxtəlif mənbələrdə bu bölgədə kartof əkilməsi, həm də bu əkinlərin tədricən geniş miqyas alması haqqında məlumatlar vardır.

Birinci Dünya müharibəsi başlandıqdan sonra Azərbaycana kənardan taxıl məhsulları gətirilməsi kəskin şəkildə ixtisar olunduğu üçün yerli azərbaycanlı əhali ərzağa tələbatın artmasını nəzərə alıb, taxıl əkinlərini genişləndirdilər [4, s.90-91]. Buna daha gəlirli texniki bitki məhsullarının ixracındakı çətinliklərin artması da təsir göstərirdi.

Bütövlükdə isə, taxılçılıq Cəbrayıl (Karyagin) qəzası əhalisinin XIX əsrin sonu – XX əsrin əvvəllərində əsas məşğuliyyəti olaraq qalırdı. Xüsusən əhalinin ərzaqla təminatında əsas yer tutan payızlıq buğda istehsalı artmaqda davam edirdi.

ƏDƏBİYYAT SİYAHISI:

Azərbaycan dilində

1. Azərbaycan etnoqrafiyası. Üç cilddə. I c., Bakı, "Şərq-Qərb", 2007, 544 s.
2. Azərbaycan tarixi. Yeddi cilddə, IV c., Bakı: Elm, 2007, 504 s.; V c., Bakı: Elm, 2008, 696 s.
3. Əliyev Q.Ə. Qafqazda nəqliyyatın inkişafı (XVIII əsrin sonu – XX əsrin başlanğıcı). Bakı, "Turxan" NPB, 2019, 400 s.
4. Əsədova R.B. Birinci dünya müharibəsi və Şimali Azərbaycan iqtisadiyyatı. Bakı, Turxan NPB, 2015. 200 s.

Rus dilində

5. Кавказский календарь на 1891-1917 гг. Тифлис: Типография Главноначальствующего гражданской частью Кавказа, 1890-1916
6. Обзор Елисаветпольской губернии за 1903 год. Приложение ко всеподданейшему отчету о состоянии Елисаветпольской губернии за 1903 год. Елисаветполь, Типография-скоропечатня А.М.Тарумова, 1904
7. Обзор Елисаветпольской губернии за 1913 год. Издание Елисаветпольского Губернского Статистического Комитета, Тифлис, 1915, 141 с.
8. Памятная книга Елисаветпольской губернии на 1910 год. Издание Елисаветпольского Губернского Статистического Комитета, Елисаветполь, 1910, 427 с.
9. Памятная книга Елисаветпольской губернии на 1914 год. Издание Елисаветпольского Губернского Статистического Комитета, Тифлис, Типография Канцелария Наместника на Кавказе, 1914, 381 с.
10. Сведения о количестве земель в Закавказском крае, находящихся в пользовании или владении сельских обществ, частных владельцев, казны и уделов, с обозначением

размера обложения тех земель казенными и земскими сборами. Елисаветпольская губерния / Кавказский календарь на 1907 г. Тифлис, типография К.П.Козловского, 1906, отд. стат., с.58-73
11. Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края. Том 4, Тифлис, Типография М.Д.Ротинианца, 1888, 902 с.

РАЗВИТИЕ ЗЕРНОВОДСТВА В ДЖЕБРАИЛЬСКОМ (КАРЯГИНСКОМ) УЕЗДЕ (КОНЕЦ XIX ВЕКА – ПЕРВЫЕ ДЕСЯТИЛЕТИЯ XX ВЕКА)

Рена Беглер Асадова
Доктор философии по истории, доцент

РЕЗЮМЕ

Основным занятием населения на всех территориях Елизаветпольской (Гянджинской) губернии, включая Джебраильский (Карягинский) уезд, исторически было зерноводство. В конце XIX века – начале XX века развитие товарного сельского хозяйства оказало серьезное влияние на зерноводство в этом регионе. В представленной статье на основе официальных документов и статистических показателей изучено зерноводство в Джебраильском (Карягинском) уезде в указанный период: особенности развития отдельных зернопроизводящих участков.

Ключевые слова: *Джебраильский (Карягинский) уезд, зерноводство, передовые орудия и машины, пшеница, ячмень, рис, просо.*

THE DEVELOPMENT OF GRAIN FARMING IN THE JABRAYIL (KARYAGIN) DISTRICT (LATE 19TH CENTURY – EARLY 20TH CENTURY)

Rana Begler Asadova
Doctor of Philosophy in History, Associate Professor

SUMMARY

Grain farming was historically the primary occupation of the population across the entire territory of the Elisabethpol (Ganja) Governorate, including the Jabrayil (Karyagino) district. Between the late 19th and early 20th centuries, the development of commercial agriculture significantly impacted grain farming in the region. Based on official documents and statistical data, this article examines grain farming in the Jabrayil (Karyagino) district during the specified period, focusing on the development characteristics of specific grain-producing areas.

Keywords: *Jabrayil (Karyagino) district, grain farming, advanced tools and machinery, wheat, barley, rice, millet.*

Rəyçi: Tarix üzrə fəlsəfə doktoru, dosent
Rəsul Mehdixanov

Məqalə redaksiyaya daxil olub: 12.07.2026
Çapa qəbul olunub: 29.08.2026
The date of the admission of the article to the editorial office: 12.07.2026
Accepted for publication: 29.08.2026